18 oktyabr Dövlət Müstəqilliyi Günüdür

# Müstəqillik xalqımızın böyük tarixi nailiyyəti və milli sərvətidir



**Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü tariximizin ən şanlı səhifələrindəndir. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Həmin gün respublika parlamenti—Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi.**

Azərbaycan Respublikasının dövlət müstəqilliyini elan etməsi Sovet İttifaqının süqutu və "soyuq müharibə"nin sona çatması kimi qlobal geosiyasi proseslər fonunda baş verirdi. Nəhəng imperiyanın iflası müttəfiq respublikaların hamısına müstəqillik yolunu açmışdı. Bununla belə, ölkəmiz üçün müstəqilliyə qovuşmaq göydəndüşmə də deyildi.

Azərbaycan xalqı illər uzunu istiqlal ideyasını özündə yaşatmışdı. 1918-1920-ci illərdəki Xalq Cümhuriyyəti bu ideyanın gerçəkləşdiyi qısa, amma tarixi əhəmiyyətli zaman kəsiyi idi. 71 illik Sovet rejimi də müstəqillik arzularını tamamilə tükəndirə bilməmişdi. Odur ki, XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə sahib olmaq hissləri digər müttəfiq respublikalara nisbətən daha impulsiv şəkildə özünü göstərirdi.

Dövlət müstəqilliyi yolunda mücadilə faktiki olaraq 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Qanlı Yanvar hadisələrindən sonra xalqı ilə bir olmaq, onun azadlıq və suverenlik arzularının gerçəkləşməsində iştirak etmək istəyən ulu öndər Heydər Əliyev Moskvadan Azərbaycana qayıtmış və Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilmişdi.

Həmin dövrdə Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Ölkədə xaos, özbaşınalıq, anarxiya hökm sürürdü. Müstəqil və qüdrətli dövlət qurmaq xoşbəxtliyi yalnız güclü şəxsiyyət yetişdirmiş xalqlara nəsib olur. Bu, tarixin sınağından çıxmış gerçəklikdir. Xalqı vahid milli ideya ətrafında birləşdirməyi bacaran lider onu öz müqəddəs arzularına qovuşdurmağa qadirdir. Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət kimi XX əsrin sonlarında Azərbaycanı bütün bəlalardan qorudu, onun suverenliyini möhkəmləndirə bildi.

Müstəqil Azərbaycanda yaşanan siyasi qeyri-sabitlik, hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzülün dərinləşməsi, torpaqların işğal edilməsi, ölkənin xaricdən təcrid olunması Heydər Əliyev fenomeninə qayıdışı qaçılmaz edirdi. Getdikcə daha artıq insan dərk edirdi ki, zamanında müstəqillik məfkurəsinə müstəsna töhfə verən Heydər Əliyev indi qazanılmış müstəqilliyin qorunub saxlanmasının yeganə qarantı ola bilər. Məhz onun sayəsində istiqlaliyyət ideyaları həqiqi gerçəkliyə çevrilər, qazanılmış dövlət müstəqilliyi qorunub saxlanıla bilər. Xalq yaxınlaşmaqda olan fəlakəti duyduğu üçün öz dövlətçiliyinin müdafiəsinə qalxdı, o vaxt Naxçıvanda yaşayan Heydər Əliyevi yenidən hakimiyyətə dəvət etdi. Yalnız Heydər Əliyev kimi güclü və polad iradəli şəxsiyyət öz çiynini belə ağır, son dərəcə məsuliyyətli yükün altına verə bilərdi. Bu addım yalnız Vətəni və xalqı naminə hər cür fədakarlığa hazır olan insan ata bilərdi. 1993-cü ilin iyun ayına qədər müstəqilliyimizin əbədiliyinə təminat yox idi. Başımıza gətirilən müsibətlər, hakimiyyət uğrunda mübarizə, hərcmərclik, anarxiya, erməni daşnaklarının işğalçılıq siyasəti nəticəsində bir milyondan artıq insanın öz ata-baba yurdlarından didərgin düşməsi tariximizin acı ibrət dərsləridir.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi, iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi.

Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir. Heydər Əliyev Milli Məclisin 15 iyun 1993-cü il tarixli iclasında ölkə parlamentinə sədr seçilərkən xalq qarşısında bəyan etdi: **"Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etdirilməsinə həsr edəcəyəm..."**. Belə bir çətin məqamda yalnız Heydər Əliyev təfəkkürü, uzaqgörənliyi, siyasəti bu vəziyyətdən çıxmaq üçün yeganə düzgün qərar verməyə qadir idi.

Xalqın təkidli tələbi, çağırışı ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyevin yürütdüyü müdrik, uzaqgörən siyasət nəticəsində üzləşdiyimiz təhlükələrin qarşısı alındı, bütün çətinliklər dəf edildi. Həmin günü də öz tarixinə qızıl hərflərlə yazmış xalqımız, sözün həqiqi mənasında, parçalanmaq və məhv olmaq təhlükəsindən qurtuldu. Azərbaycanın hərtərəfli tərəqqisinə, xalqımızın milli-mədəni, tarixi ənənələrinə, ümumbəşəri dəyərlərə söykənən, sivil, demokratik cəmiyyətin yaradılmasına xidmət edən islahatların həyata keçirilməsinə start verildi. Heydər Əliyev müstəqilliyimizin qorunub saxlanılması və inkişafı üçün taleyüklü problemləri həll etdi. Atəşkəsə nail olundu, ordu quruculuğu işlərinə başlandı. Dünya dövlətlərinin ölkəmizdə gedən müsbət proseslərə marağı artdı. Uğurlu islahatların bünövrəsi qoyuldu. Ölkəmiz məhz ulu öndərin möhtəşəm səyləri nəticəsində sürətli inkişaf yoluna çıxdı. Respublikamız beynəlxalq təşkilatlara üzv qəbul edildi. Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri də uğurlu neft strategiyasının hazırlanaraq həyata keçirilməsidir. 1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynadı. Həmin saziş nəticəsində bütün dünyanın diqqət mərkəzinə çevrilən ölkəmiz eyni zamanda qlobal məkanda özünün statusunu müəyyənləşdirməyə nail oldu. Ümummilli liderimizin rəhbərliyi dövründə müstəqil dövlətimiz əsrə bərabər inkişaf yolu qət etdi. Bu inkişafın bariz reallığı Heydər Əliyevin şah əsəri olan müasir, müstəqil Azərbaycandır. Ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada ulu öndər Heydər Əliyev dühasının bəhrələri görünməsin.

Heydər Əliyev Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafeyinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı, beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində çox gərgin fəaliyyət göstərdi. Azərbaycan neftinin dünya bazarına nəqli sahəsində də uğurlu addımlar atdı. "Bakı-Supsa" boru kəməri tikilib istifadəyə verildi. Heydər Əliyevin uzaqgörənliyi və siyasi iradəsi sayəsində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsinə başlanıldı.

Azərbaycanda demokratikləşmə və modernləşmənin ilkin mərhələsi üçün xarakterik xüsusiyyətlərdən biri də dünya təsərrüfat sisteminə və ümumilikdə Avratlantik məkana sürətli inteqrasiyanın təmin edilməsi olmuşdur. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsinə külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan vermişdir.

Müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd edərkən biz qürur və iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan iqtisadi sahədə dünyada ən sürətlə inkişaf edən ölkələrdən biridir. Ötən 27 il ərzində respublikamızda demokratik dövlət quruculuğu və yeni iqtisadi sistemin formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində çox böyük işlər görülmüşdür.

Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan bu gün Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində bütün sahələrdə böyük uğurlar qazanılmışdır.

**Ceyhun MƏMMƏDOV,**
**"Azpetrol LTD" MMC-nin baş direktoru,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**